# Azərbaycanda təhsil sahəsində qazanılan uğurlar beynəlxalq səviyyədə yüksək dəyərləndirilir

## **Prezident İlham Əliyev:** *Son 15 il ərzində Azərbaycanda 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Bu, təhsil sahəsinə çox böyük töhfədir*

*Xəbər verildiyi kimi, bu günlərdə Azərbaycanın paytaxtı Bakı daha bir mötəbər tədbirə - 31-ci Beynəlxalq İnformatika Olimpiadasına (“IOI 2019”) ev sahibliyi edir. Avqustun 5-də açılış mərasimi keçirilən Beynəlxalq İnformatika Olimpiadası avqustun 11-dək davam edəcək. Ölkəmizdə ilk dəfə keçirilən Beynəlxalq İnformatika Olimpiadasında Azərbaycan komandası da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyətləri iştirak edirlər.*

### TƏHSİL AZƏRBAYCAN GƏNCLƏRİ ÜÇÜN ƏSAS İSTİQAMƏT KİMİ MÜƏYYƏNLƏŞDİRİLİB

Bəhs olunan Beynəlxalq İnformatika Olimpiadasının keçirilməsi üçün məkan kimi Azərbaycanın seçilməsi heç də təsadüfi deyil. Müvafiq qurumların, beynəlxalq təhsil ictimaiyyətinin belə bir vacib qərar qəbul etməsi, əlbəttə ki, ilk növbədə ölkəmizin müsbət reallıqları ilə bağlıdır. Son illərdə Azərbaycan müxtəlif səpkili beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübə qazanıb. Geniş imkanlara malik olan Azərbaycan bu qəbildən olan mötəbər tədbirlərdə bir qayda olaraq özünün yüksək standartlarını tətbiq edir və bu da beynəlxalq səviyyədə ölkəmizə olan inamı daha da artırır.

Çoxsaylı nüfuzlu idman yarışlarının, qlobal əhəmiyyət daşıyan humanitar və mədəniyyətlərarası dialoq forumlarının, bütün dünyada böyük populyarlığa malik mədəniyyət müsabiqələrinin, festivalların ardınca bu dəfə respublikamız təhsillə bağlı beynəlxalq tədbirə ev sahibliyi edir. Yerli və xarici ekspertlərin də bildirdikləri kimi, 31-ci Beynəlxalq İnformatika Olimpiadasının keçirilməsi üçün məkan kimi Azərbaycanın seçilməsi yuxarıda diqqətə çatdırılan amillərlə yanaşı, həm də müstəqil Azərbaycanda təhsilin müasir trendlər və çağırışlar əsasında inkişaf etdirilməsinin dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi ilə bağlıdır. Göründüyü kimi, ölkəmizdə dövlət tərəfindən təhsilə göstərilən qayğı və bu sahədə qazanılan uğurlar beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, respublikamızda təhsil gənclər üçün əsas istiqamət kimi müəyyənləşdirilib. Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında söylədiyi nitqində gənclərə Öz mesajlarını çatdıraraq deyib: **“Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar”.**

Məlum olduğu kimi, müstəqil Azərbaycanda təhsilə yüksək səviyyədə dövlət qayğısı siyasətinin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Azərbaycan müəllimlərinin XV qurultayında Ulu Öndərin ölkəmizin təhsil sistemində islahatların əsasını qoyduğu xüsusi vurğulanıb.

Eyni zamanda, son 15 ildə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə təhsil sektorunun inkişafını hədəfləyən real məzmunlu islahatlar davam etdirilib. Bəhs olunan dövrdə respublikamızda təhsil sektorunun dinamik inkişafına hesablanan “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” kimi mühüm sənədlər qəbul olunub. Bu və digər strateji əhəmiyyətli proqramların uğurlu icrası ölkəmizdə “Bilik iqtisadiyyatı”na keçidi və respublikanın modernləşməsi üçün həlledici amil kimi insan kapitalının inkişafını yüksək səviyyədə təmin edir.

> *“Bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir”*

Həyata keçirilən bu və ya digər tədbirlərin, təhsilin inkişafı ilə bağlı qəbul edilən müvafiq Dövlət proqramlarının uğurla icra edilməsi sayəsində ölkəmizdə təhsil sahəsində keyfiyyət və kəmiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Respublikamızda təhsil sektoruna, yüksək səviyyəli insan kapitalının formalaşdırılmasına göstərilən davamlı dövlət qayğısının təməlində isə Azərbaycanın güclü dövlətə çevrilməsi, özünün iqtisadi potensialını artırması amili dayanır. Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarına ünvanladığı təbrik məktubunda bunu nəzərə çatdıran Prezident İlham Əliyev **“İqtisadiyyatımızın tərəqqisi ölkəmizdə təhsilin inkişafına da öz müsbət təsirini göstərmişdir. Sosial siyasətimizin əsas prioritetlərindən biri ölkəmizdə zamanın çağırışlarına cavab verən və beynəlxalq standartlara uyğun milli təhsil sisteminin qurulmasıdır”**, - deyə vurğulayıb.



### GÜCLÜ MÜASİR İNFRASTRUKTURUN YARADILMASI TƏHSİL SAHƏSİNDƏ UĞURLARIN ƏSASINI TƏŞKİL EDİR

Sirr deyil ki, müvafiq maddi-texniki baza olmadan təhsilin keyfiyyət göstəricilərindən də söhbət açmaq mümkün deyil. Güclü müasir infrastrukturun yaradılması təhsil sahəsində uğurların əsasını təşkil edir. Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq təhsilin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir, o cümlədən yeni çoxsaylı təhsil müəssisələri tikilib istifadəyə verilir. Yeni tikilən təhsil ocaqları bir qayda olaraq ən müasir vəsaitlərlə təmin olunur. Son 15 ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məktəb tikintisinə dair bir neçə ayrıca Dövlət Proqramı qəbul edilib. Bundan başqa, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilir. Məsələn, regionların, Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı, eləcə də yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı Dövlət proqramlarında məktəb tikintisinə dair geniş müddəalar öz əksini tapıb. Eyni zamanda, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda da təhsil müəssisələrinin infrastrukturunun yenilənməsinə geniş yer ayrılıb.

> *“İqtisadiyyatımızın tərəqqisi ölkəmizdə təhsilin inkişafına da öz müsbət təsirini göstərmişdir”*

Ümumiyyətlə, respublikamızda gənc nəslin yüksək savad alması, vətənpərvərlik ruhunda böyüməsi üçün məqsədyönlü dövlət siyasəti reallaşdırılır və bu vacib işdə bütün cəmiyyət iştirak edir. Məsələn, ölkəmizdə dövlətin məqsədyönlü təhsil siyasətinə Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu böyük dəstək göstərir. Belə ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond indiyədək təhsillə bağlı bir sıra mühüm layihələr reallaşdırıb, o cümlədən də ölkə boyu yeni məktəblərin, uşaq bağçalarının tikintisində və yenidən qurulmasında böyük fəallıq göstərib.

> *“Sosial siyasətimizin əsas prioritetlərindən biri ölkəmizdə zamanın çağırışlarına cavab verən və beynəlxalq standartlara uyğun milli təhsil sisteminin qurulmasıdır”*

Respublikamızda dövlət xətti və Heydər Əliyev Fondunun dəstəyi ilə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi ildən-ilə daha geniş vüsət alır. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar əsasında ölkə üzrə məktəb tikintisinə, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük həcmlərdə maliyyə vəsaiti yönəldilir. Məsələn, dövlət başçısının 10 iyun 2019-cu il tarixində imzaladığı “Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında” Sərəncamla Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinə 40.0 (qırx) milyon manat vəsait ayrılıb. Prezident İlham Əliyev 11 iyun 2019-cu il tarixində isə “Azərbaycan Respublikasında təhsil müəssisələrinin qazlaşdırılması haqqında” Sərəncam imzalayıb. Bəhs olunan sənədə əsasən, təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə Təhsil Nazirliyinə 5,7 milyon (beş milyon yeddi yüz min) manat vəsait ayrılıb.

Ölkə boyu 2004-cü ildən bəri yeni təhsil müəssisələrinin tikilməsi və yaxud mövcud məktəblərin əsaslı şəkildə yenidən qurulması sayəsində 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb. Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimindəki çıxışında ölkəmizdə təhsilin inkişafı məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirildiyinə diqqət çəkərək vurğulayıb ki, Azərbaycanda təhsilə çox böyük diqqət yetirilir. Dövlət başçısı yeni məktəblərin inşasını təhsil sahəsinə böyük töhfə kimi dəyərləndirərək deyib: **“Son 15 il ərzində Azərbaycanda 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Bu, təhsil sahəsinə çox böyük töhfədir”.**

Hazırda ölkə üzrə modul tipli məktəblərin tikintisi də intensiv şəkildə davam etdirilir. Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2019-cu il iyunun 10-da imzaladığı müvafiq Sərəncama əsasən, respublika ərazisində modul tipli məktəblərin quraşdırılması məqsədilə Təhsil Nazirliyinə 18,0 (on səkkiz) milyon manat vəsait ayrılıb.

### BEYNƏLXALQ İNFORMATİKA OLİMPİADASININ AZƏRBAYCANDA KEÇİRİLMƏSİ ÖLKƏ TƏHSİLİ ÜÇÜN BÖYÜK ÖNƏM DAŞIYIR

Bu məqamda vurğulamaq yerinə düşər ki, Beynəlxalq İnformatika Olimpiadasının Azərbaycanda keçirilməsi ölkə təhsilinin qlobal təhsil sisteminə inteqrasiyası, təhsil sahəsində qarşıya qoyulan hədəflərin müasir trendlərlə və çağırışlarla uzlaşdırılması, eləcə də azərbaycanlı şagirdlərin beynəlxalq təcrübə qazanmaları baxımından çox önəmlidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın XXXI Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarına ünvanladığı təbrikində bildirilir ki, biliklərə əsaslanan cəmiyyətin formalaşdığı və rəqəmsal bacarıqların son dərəcə zəruri olduğu indiki dövrdə informasiya-kommunikasiya texnologiyaları elmi potensialın vacib göstəricilərindən birinə çevrilmişdir. İnformatika iqtisadiyyatda, elmdə və cəmiyyət həyatında böyük əhəmiyyətə malikdir. Dünya informasiya şəbəkəsinin yaradılması isə kompüter biliklərinin rolunu xeyli artırmışdır. **“Beynəlxalq İnformatika Olimpiadası bu baxımdan qarşınızda yeni üfüqlər açır. Kompüter elmləri üzrə ən mötəbər müsabiqələr arasında özünəməxsus yer tutan bu bilik yarışı arzularınızın gerçəkləşməsi və həyat yolunuzun müəyyənləşməsinə, əlbəttə, ciddi təsir göstərəcəkdir”**, - deyə təbrikdə vurğulanır.

Məlumat üçün bildirək ki, Beynəlxalq İnformatika Olimpiadası 30 illik tarixə malikdir. İndiyə qədər bu yarışlara 24 dəfə qatılan Azərbaycan komandaları 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 5 medal qazanıblar.

Beynəlxalq İnformatika Olimpiadası başa çatdıqdan sonra “Acer” şirkəti 450 ədəd “Aspire” notbukunu ADA Universiteti və Təhsil Nazirliyinə hədiyyə edəcək. ADA Universiteti onlardan İT və Mühəndislik Məktəbində iki yeni laboratoriyanın təchizində istifadə edəcək. Təhsil Nazirliyi isə Azərbaycan məktəblərində informatika fənninin tədrisi üçün “Rəqəmsal bacarıqlar” pilot layihəsini dəstəkləyəcək.

Mübariz ABDULLAYEV